# MÜBARİZ KEŞİKDƏ

DİN

18 iyul 2019-cu il
Cümə axşamı

№ 27 (3442)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## PREZİDENT İLHAM ƏLİYEV NATO MÜTTƏFİQ QÜVVƏLƏRİNİN AVROPADAKI ALİ KOMANDANININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Söhbət zamanı Bakıda beynəlxalq əhəmiyyətli mühüm görüşlərin keçirilməsindən məmnunluq ifadə olundu.***

***Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına töhfəsi məsələləri müzakirə edildi.***



## PREZİDENT İLHAM ƏLİYEV RUSİYA SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Rusiya Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların mütəmadi olaraq Bakıda aparılmasının əhəmiyyəti qeyd edildi.***

***Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu.***

***Görüşdə hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparıldı.***

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA: ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV BÜTÜN ÖMRÜ BOYU XALQINA, VƏTƏNİNƏ SƏDAQƏTLƏ XİDMƏT EDİB

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycan tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda yer alıb.

Paylaşımda qeyd edilir ki, Heydər Əliyevin nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır.

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da milli bayram münasibətilə Monqolustanın Prezidenti zati-aliləri cənab Xaltmaaqiyn Battulqaya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı iyulun 10-da Azərbaycan teatr sənətinin inkişafında xidmətlərinə görə Mərahim Fərzəli oğlu Fərzəlibəyovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri iyulun 10-da "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarını təbrik edib.**

❖❖❖❖❖

***İyulun 10-da Azərbaycan Prezidenti İlham Əliyev Monteneqronun milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Milo Cukanoviçə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**İyulun 11-də dövlətimizin başçısı Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***İyulun 11-də ölkəmizin rəhbəri Fransa Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Emmanuel Makrona təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 15-də memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rasim Həsən oğlu Əliyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

## XALQIN İNAMINDAN GÜC ALAN QÜDRƏTLİ LİDER – ULU ÖNDƏR

**Milyonların sevgisini qazanıb, ürəklərdə yer tutmaq, mənsub olduğu xalqın tarixində və taleyində yeni səhifə açmaq hər liderə nəsib olan xoşbəxtlik deyil. Həmin zirvəyə çatan xalqımızın ümummilli lideri kimi anılan Heydər Əliyevin ümumxalq məhəbbəti qazanmasının ən başlıca səbəbi öz taleyini xalqının taleyinə çevirə bilməsi, ömrünün böyük hissəsini canından artıq sevdiyi Azərbaycana həsr etməsi idi.**

Hələ 1969-cu ildə birinci dəfə ölkəmizdə rəhbərliyə gələn Heydər Əliyev ittifaq respublikaları arasında mövqeləri xeyli zəif olan Azərbaycanın güclü yüksəlişinə, səsinin ucadan eşidilib, adının hörmətlə çəkilməsinə nail oldu. Onun yorulmaz fəaliyyəti nəticəsində ölkəmizin bütün ərazisi başdan-başa quruculuq meydanına çevrildi. 1970-1982-ci illərdə 250 yeni müəssisə, istehsalat sahələri və sexlər tikildi. Neftayırma sənayesi müəssisələri tamamilə yenidən quruldu, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma zavodları inşa edildi. Nəticədə həmin müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə, xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox, fond verimi 25 faiz artdı. 1969-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə çoxaldı. Ən əsası isə 1970-ci ildən başlayaraq Azərbaycanın sənayesi və kənd təsərrüfatı orta ittifaq göstəricilərini qabaqlayıb sürətli inkişafa nail oldu. İqtisadi inkişafın əsas ümumi göstəricisi – milli gəlir də eyni sürətlə - 2,6 dəfə artdı. Bu sözləri adambaşına düşən milli gəlir barədə də demək mümkündür.

O dövrdə xalqın rifahının yaxşılaşması sayəsində ümumi yaşayış səviyyəsi də yüksəlmişdi. Respublikamızın paytaxtında yeni yaşayış massivləri, parklar salınıb, milli arxitekturamızın ən gözəl nümunələri sayılacaq binalar ucaldıldı. Yaraşıqlı meydanlar, küçələr, yollar, körpülər quruldu. Azərbaycan kəndinin sosial-mədəni siması büsbütün dəyişdi. Alçaq, çiy kərpicdən tikilən komalar əvəzinə ağ mişar daşından tikilən ikimərtəbəli səliqə-sahmanlı evlər kəndlərimizin, qəsəbələrimizin yaraşığına çevrildi. Yeni sosial-mədəni obyektlər istifadəyə verildi. Bircə faktı deyək ki, 13 il ərzində əvvəlki 50 ildə olduğundan 60 faiz çox, yəni 22 milyon kvadratmetr mənzil sahəsi tikilmişdi.

Həmin dövrdə tikilən "Gülüstan", "Respublika" sarayları, Prezident sarayı, Milli Məclisin binası, "Moskva", "Abşeron", "Azərbaycan", "İnturist" mehmanxanaları Bakının hüsnünə yaraşıq verdi. "Olimpiya" idman kompleksi, Əl oyunları idman sarayı, Əhmədli və Günəşli yaşayış massivləri də cənab Heydər Əliyevin əməyinin bəhrəsidir. Dahi öndərimizin təşəbbüsü ilə biri-birinin ardınca metro stansiyaları tikildi, Vaqifə, N.Nərimanova, Qara Qarayevə, C.Cabbarlıya, Nəsimiyə və xalqımızın digər işıqlı simalarına abidələr ucaldıldı. Mədəniyyətimizi, elmimizi təmsil edənlərə yüksək dövlət mükafatları verildi, onlar qayğı və diqqətlə əhatə olundular.

Sosializm dövründə "xalqlar dostluğu", "beynəlmiləlçilik" tez-tez təkrarlanan şüarlardan olsa da, əslində, özgə millətlərdən olanların SSRİ miqyasında rəhbər vəzifəyə təyin edilməsi görünməmiş və qeyri-adi hadisə idi. İttifaq miqyasında nəhəg işlərin öhdəsindən asanlıqla gələ bilən, mövqeyi və cəsarəti ilə fərqlənən Heydər Əliyev işgüzarlığı və istedadı ilə ətrafdakı partiya bosları arasında parlayıb, fərqləndi. Onun hadisələrə özəl yanaşma prinsipi isə çoxları tərəfindən qısqanclıqla qarşılandı. Bu böyük şəxsiyyətin böyük siyasətdən uzaqlaşdırılması Azərbaycan xalqının müsibətli günlərinin başlanğıcını qoydu. Yenidənqurma adlı oyunun ardınca gələn daha fəlakətli təcavüz xalqımızı üzücü müharibəyə saldı.

Həmin vaxt respublikaya təyin olunan imperiya canişinləri hər vəchlə Kremldəki ağalarının əmrinə "Ləbbeyk" deyib, hüzurlarında müntəzir durmaqla məşğul idilər. Dağlıq Qarabağda və Ermənistanla həmsərhəd bölgələrdə azərbaycanlıların qətlə yetirildiyi, basqınlara məruz qaldığı, daşnak quldurlarının hər cür hərbi təcavüzə, terrorlara əl atdığı bir vaxtda ölkəyə qayıdıb öz xalqına köməklik istəyən dahi öndərimizə qarşı təqiblər, nadan hərəkətlər kampaniyası başlandı. Respublikaya başçılıq edən naşı və səriştəsiz adamların iqtidarı dövründə baş qaldıran xaos, anarxiya, arasıkəsilməz hakimiyyət davası nəticəsində dərinləşən Ermənistanın təcavüzü, məğlubiyyət, xaricdən dəstəklənən separatizmin tüğyan etməsi ölkəmizi fəlakət həddinə çatdırdı. Xalq özünün güvənc yeri olan Heydər Əliyevə üz tutanda ulu öndər Vətənin harayına yetdi. Böyük qayıdışla kövrək müstəqilliyimiz fəlakətlər girdabından xilas edildi. Bu yolda dəfələrlə təhlükələr, sui-qəsd cəhdləri ilə üzləşən xalqımızın yenilməz oğlu heç nədən çəkinməyərək, ölkəmizin nurlu sabahı naminə yorulmadan çalışdı.

İlk növbədə dağılmış iqtisadiyyatı bərpa etmək, ölkəyə xarici investisiyaların qoyulmasına nail olmaq üçün yorulmadan çalışan ümummilli liderimiz Xəzərin zəngin karbohidrogen ehtiyatlarının birgə işlənməsi məqsədi ilə mütərəqqi plan hazırlayaraq 20 sentyabr 1994-cü il "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bu gün dünya bazarında ən çox tələbatla qarşılanan neft və qazdır. Dahi öndərimiz bununla iqtisadiyyatı dağılan, yenicə müstəqillik qazanan dövlətin qarşısında dayanan bir neçə vəzifəni eyni vaxtda həll etdi. Qısa müddətdə ölkəyə külli miqdarda xarici sərmayə qoyuldu, neft sənayesi iqtisadiyyatın digər sahələrinin dirçəldilməsi üçün lokomotiv rolunu oynadı, Azərbaycan iqtisadiyyatı böyük sürətlə dünya iqtisadiyyatına inteqrasiya olunmağa başladı.

Ümummilli liderimiz tərəfindən 50 il bundan öncə bünövrəsi qoyulan möhtəşəm fəaliyyətin bəhrəsi hələ çox illər Azərbaycanımıza xidmət edəcək. Bu gün dahi öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev ölkəmizin güclü, zəngin dövlət olması üçün əzmlə çalışır. Hamı inanır ki, yaxın gələcəkdə milli dövlətçiliyimiz naminə görülən nəhəng işlər öz bəhrəsini verəcək, Azərbaycanımız qarşıda duran bütün problemlərin həllinə nail olacaqdır.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**İyulun 12-də Daxili İşlər Nazirliyində 2019-cu ilin 6 ayında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü ərəfəsində bir qrup əməkdaşın dövlət mükafatlarına layiq görülməsini daxili işlər orqanlarına yüksək etimadın növbəti əyani ifadəsi olduğunu vurğulayıb.

Cari ilin birinci yarısında respublikada cinayətkarlıqla mübarizənin və ictimai təhlükəsizliyin təmin olunmasının vəziyyətindən danışan cənab nazir bu sahədə əvvəlki dövrlərdə əldə olunmuş müsbət nəticələrin bir çox istiqamətlər üzrə inkişaf etdiyini, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunduğunu, kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər orqanlarının qarşısında duran vəzifələrin bütövlükdə yerinə yetirildiyini bildirib.




Sonra geniş məruzə ilə çıxış edən nazir V.Eyvazov hesabat dövründə daxili işlər və prokurorluq orqanları üzrə 12411 cinayətin qeydə alındığını, bu cinayətlərin 88,5 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlərin təşkil etdiyini qeyd edib. Qəsdən adam öldürməyə cəhd cinayətlərinin 12,2, qəsdən sağlamlığa ağır zərər vurmaların 4,1, mülkiyyət əleyhinə olan cinayətlərin 8,1, xuliqanlıqların 25,1, ictimai yerlərdə baş vermiş cinayətlərin 35 faiz azaldığını, həmçinin cinayətlərin açılmasının yüksək olmaqla 83,1 faiz təşkil etdiyini, məhkəmədən, istintaqdan və təhqiqat orqanlarından yayınan 1852 təqsirləndirilən şəxsin tutulduğunu vurğulayıb. Bildirib ki, ötən ilin 6 ayı ilə müqayisədə cari ilin müvafiq dövründə ağır və xüsusilə ağır, şəxsiyyət əleyhinə olan, onlardan qəsdən adam öldürmələrin, adam öldürməyə cəhdlərin, dələduzluqların, soyğunçuluqların açılması xeyli yaxşılaşıb, keçmiş illərdən bağlı qalmış 163 cinayətin açılması təmin edilib.

Məruzəçi ötən 6 ayda mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 424 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 65 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən bütövlükdə 810 kiloqram narkotik vasitənin çıxarıldığını və 74 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini vurğulayıb.

Bununla yanaşı, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin cari ilin birinci yarısında da yerinə yetirildiyini nəzərə çatdıran nazir V.Eyvazov Nazirliyin rəhbərliyi tərəfindən 2749, o cümlədən respublikanın ayrı-ayrı şəhər və rayonlarında 680 vətəndaşın qəbulunun həyata keçirildiyini, vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əksəriyyətinin öz müsbət həllini tapdığını qeyd edib.

Məruzə ətrafında çıxış edən Naxçıvan MR-in Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov, DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi, polis general-mayoru Elşən Kazımov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov və digərləri görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsanlar və onların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlığı ilə fərqləndiklərini, eləcə də digər hüquq mühafizə orqanları ilə birlikdə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin uğurla davam etdirildiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyini qeyd edən Daxili İşlər naziri ölkə başçısının ali etimadının şəxsi heyətin üzərinə böyük məsuliyyət qoyduğunu, bu etimadı doğrultmaq üçün ilk növbədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsini, hər bir struktur qurumda vətəndaş məmnunluğuna, insanlarla münasibətdə etik davranış qaydalarına ciddi əməl olunmasını, şəxsi heyətin peşəkarlığını artırmasını, yüksək mənəvi keyfiyyətlərə malik olmasını, bu istiqamətlərdə fəaliyyətin məqsədyönlü surətdə davam etdirilməsini tələb edib.

Ümumən, daxili işlər orqanlarının şəxsi heyətinin digər dövlət strukturları ilə sıx qarşılıqlı əlaqədə ölkədə həyata keçirilən asayişi mühafizə siyasətinin reallaşdırılmasına həmişə layiqli töhfələr verdiyini xatırladan Daxili İşlər naziri V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi bütün şəxsi heyət adından əmin edib ki, bu iş gələcəkdə də böyük əzmlə davam etdiriləcək, aidiyyatı qanunvericilik aktlarından irəli gələn vəzifələr, qarşıya qoyulmuş bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetiriləcək. Əməkdaşlar və hərbi qulluqçular sabitliyin, əmin-amanlığın, dövlətin, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, 2019-cu ili də yüksək göstəricilərlə başa vuracaqlar.

Sonra Azərbaycan Polisinin 101 illik yubileyi münasibətilə təltif olunmuş bir qrup polis əməkdaşına dövlət mükafatlarının təqdim edilməsinə həsr olunmuş mərasim keçirilib.

*12 iyul 2019-cu il.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNDƏN

**İyulun 15-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmalarına həsr olunmuş tədbir keçirilib.**





Nazir, general-polkovnik Vilayət Eyvazov iştirakçıları əlamətdar hadisə - zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini, son illər bu praktikadan geniş istifadə olunduğunu xatırladıb.

Daxili İşlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov Nazirliyə Bakı qeydiyyatında olan 41 məzunun dəvət edildiyini bildirmiş, vakant vəzifələrin və namizədlərin siyahısını elan etmişdir.



Daha sonra püşkatma yolu ilə təyinat keçirilmişdir. Polisin orta rəis heyəti vəzifələrinə iddiaçı olanlar həmin vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkmiş və ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinə təyinat almışlar.

Yeri gəlmişkən, Akademiyanı fərqlənmə diplomu və əla qiymətlərlə bitirmiş 5 məzundan 1-i Nazirliyin Baş Təşkilati-İnspeksiya İdarəsinə, 1-i Baş Cinayət Axtarışı İdarəsinə, 1-i Baş Kadrlar İdarəsinə, 2 nəfər isə müstəntiq vəzifələrinə təyin edilmişlər.

Tədbirə yekun vuran Daxili İşlər naziri gəncləri şərəfli olduğu qədər yüksək məsuliyyət, işgüzarlıq, mükəmməl nəzəri bilik və praktik bacarıq tələb edən orta rəis heyəti vəzifələrinə təyin olunmaları münasibətilə bir daha təbrik edib, konkret tapşırıq və tövsiyələrini verib. O, xüsusilə qeyd edib ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin dönməzliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, digər hüquq-mühafizə orqanları ilə birlikdə gərgin səylər hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında ulu öndərimizin və möhtərəm Prezidentimizin vurğuladıqları kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlətimizin başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Nazir əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda, Vətənə sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

*15 iyul 2019-cu il.*

# POLİS AKADEMİYASINDA ÜMUMMİLLİ *LİDER HEYDƏR ƏLİYEVİN* HAKİMİYYƏTƏ GƏLMƏSİNİN 50 İLLİYİ MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB

**İyulun 15-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə DİN-in Polis Akademiyasında tədbir keçirilib.**

Əvvəlcə ulu öndərin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə Daxili İşlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev qonaqlar, akademiyanın şəxsi heyəti və kursantlar qarşısında giriş sözü ilə çıxış edib. O, qeyd edib ki, 1969-cu ildən Azərbaycana rəhbərlik edən Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi məmləkətini nəinki keçmiş SSRİ-də, hətta dünyada sivil bir respublika kimi tanıdıb, milli varlığımızı beynəlxalq aləmə nümayiş etdirib.



Ulu öndərin respublikamıza birinci rəhbərliyi müddətində hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının inkişafı və milliləşməsi istiqamətində də böyük bir fəaliyyət ortaya qoyduğunu xüsusi vurğulayan nazir müavini qeyd edib ki, həmin illərdə Daxili İşlər Nazirliyinə dövlət qayğısı güclənib, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər ruhunda təlim-tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə, xalqa, vəzifə borcuna sədaqətli kadrların irəli çəkilməsinə önəm verilib. Bütövlükdə, Azərbaycana ilk rəhbərliyi dövründə, Heydər Əliyev, Sovet İttifaqı tərkibində bugünkü müstəqil dövlətimizin ilkin əsaslarını formalaşdırıb.



Daha sonra çıxış edən Bakı Dövlət Universitetinin professoru Nuru Məmmədov diqqətə çatdırıb ki, ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1993-cü ildən sonrakı on il ərzində böyük və şərəfli yol keçib. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yaddaşlarda və tarixdə qalıb. Bu illər ərzində dövlətçiliyin əsasları qoyulub. Nazir müavini görkəmli dövlət xadiminin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra əldə olunan nailiyyətlərdən danışaraq bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, respublikamızın həm də beynəlxalq aləmdəki mövqeyinin günü-gündən möhkəmləndiyini vurğulayıb.

Mərasimin sonunda ulu öndərin zəngin həyat və siyasi fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş olunub.

*15 iyul 2019-cu il.*

# SÖZÜMÜZƏ, ÖZÜMÜZƏ LAYİQ OLAQ!

**Çağdaş dünyada informasiya amili insan həyatının ayrılmaz hissəsinə çevrilib desək, yanılmarıq. Cəmiyyətdə qarşılıqlı informasiya mübadiləsinin əsasını təşkil edən kütləvi informasiya vasitələri, eyni zamanda maarifləndirmə funksiyasını yerinə yetirir. Bu missiyanı üzərinə götürən KİV-in mühüm qollarından biri qəzetçilik və nəşriyyat işidir.**

Yazılı KİV hələ də ictimai fikrin formalaşmasında və baş verən hadisələr barədə insanların məlumatlandırılmasında mühüm rol oynayır, cəmiyyətin düşünən beyni olan ziyalı təbəqəsinin, orta və yaşlı nəslin, belə deyək, mənəvi ehtiyacını ödəməkdədir. Heç də təsadüfü deyil ki, bu gün dünyanın super dövləti olan ABŞ-da nəşr olunan "The Nyu York Times", "Washington Post", Avropa nəhəngləri - Böyük Britaniyanın "The Guardian", "The Times", "The Daily Telegraph", Almaniyanın, Fransanın milyon nüsxələrlə tirajlanan qəzetləri dünya siyasətinə, beynəlxalq rəyə ciddi ölçüdə təsir göstərir. Adlarını çəkdiyimiz, adları hamıya yaxşı tanış olan digər mətbuat orqanları onilliklərdir ki, təkcə maarifçiliklə deyil, geniş təbliğat, təşviqat fəaliyyəti, informasiya müharibələrinin sükançısı rolunda yüksək peşəkarlıqla çıxış edirlər.

Qəzetçilik tarixinə nəzər yetirsək, görərik ki, hələ Roma imperatoru Yuli Sezarın dövründə "Senatın işləri" adlı indiki qəzetləri xatırladan gil lövhələr hazırlanırdı. Lövhələrdə saray həyatı, ticarət xəbərləri, hadisələr yazılırdı. İlk gündəlik qəzet isə Romada b.e.ə. 59-cu ildə nəşr olunmağa başlamış və "Günün hadisələri" adlanan vərəqdən ibarət olmuşdur. Avropada 1609-cu ildən müntəzəm şəkildə çap edilən ilk qəzet isə "Avista Relation" və yaxud "Zaytung" idi.

Azərbaycanda milli mətbuatın əsası 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə qoyuldu. "Əkinçi" Azərbaycanda ilk jurnalist nəslini yetişdirdi, peşəkar jurnalistika məktəbini formalaşdırdı, peşə prinsiplərini yaratdı. "Əkinçi"nin nəşri Azərbaycan xalqının milli təfəkkürünə, milli oyanışına təkan verdi.




Müasir jurnalistikanın, qəzet nəşrinin inkişafında isə ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ümummilli liderin mətbuat üzərindən senzuranın götürülməsi barədə qərarı, "Azərbaycan" nəşriyyatına olan borclarını dondurmaqla və sonradan bu borcları ləğv etməklə iqtisadi böhranın girdabında boğulan qəzetləri məhv olmaqdan xilas etməsi bunun bariz nümunəsidir. Onun rəhbərliyi dövründə Azərbaycan mətbuatı müstəqillik dönəmində ilk dəfə olaraq, obrazlı desək, rahat nəfəs aldı, yeni mərhələyə, dirçəliş və inkişaf dövrünə qədəm qoydu.

Böyük yolun davamı dövlət başçısı cənab İlham Əliyevin azad mətbuatın inkişafına göstərdiyi misilsiz xidmətlərlə özünü təsdiqlədi. Təkcə Milli Mətbuat günləri münasibətilə jurnalistlərə mənzillərin hədiyyə olunması, onlara fəxri adların və digər mükafatların verilməsi möhtərəm Prezidentimizin bu şərəfli və çox çətin, məsuliyyətli peşə sahiblərinə olan böyük dəstəyinin, ali diqqət və qayğısının əyani sübutudur.

Bu gün Daxili İşlər Nazirliyinin 5 mətbu orqanı fəaliyyət göstərir: Nazirliyin "Mübariz keşikdə" qəzeti və "Asayişin keşiyində" jurnalı, Daxili Qoşunların Baş İdarəsinin "Əsgər", Bakı Şəhər Baş Polis İdarəsinin "Polis" və Polis Akademiyasının "Polis Akademiyası" qəzetləri. Sözügedən mətbuat orqanları müdrik babalarımızdan yadigar qalan qəzetçilik ənənələrini layiqincə davam etdirir, daxili işlər orqanları əməkdaşlarının və hərbi qulluqçuların maariflənməsinə, Vətənə və dövlətçiliyə məhəbbət, sədaqət ruhunda tərbiyəsi işinə öz töhfələrini verirlər.

22 iyul Milli Mətbuat Günüdür. 22 iyul Söz, Qələm, Vətəndaşlıq və Milli Qürur bayramıdır.

Sözümüzə, özümüzə layiq və sadiq olaq!

*Teymur Əlizadə,*
*polis kapitanı*

# İŞİNİZ ASAN, ARZUNUZ ÇİN OLSUN!

**Uşaq ikən hər birimiz: "Böyüyəndə hansı peşəni seçəcəksən?" sualı ilə tez-tez rastlaşırdıq. Polis, həkim, təyyarəçi olmaq istəyənlərin sayı lap çox olardı. İllər ötəndən sonra anladıq ki, uşaqlıq arzusunu gerçəkləşdirmək hər kəsə qismət olmur. O isə...**



"ASAN xidmət" mərkəzində sıra nömrəsi götürüb kabinetə daxil olarkən məni çoxdan tanıyırmış kimi, təbəssümlə qarşıladı. Sənədləri diqqətlə nəzərdən keçirib, "Narahat olmayın, çətin bir şey yoxdur, çalışaram ki, qısa bir zamanda hər şeyi yoluna qoyum,"- dedi.

Masasının üstündə kitabları görəndə: "Yəqin ki, işdən vaxt tapan kimi oxuyursunuz" sualıma, "Kitablarsız mümkün deyil. Gözəl fikir, maraqlı bir cümlə oxuyanda bütün yorğunluğum çıxır. Hər gün 300-500 vətəndaşın işini asanlaşdırmaq, onlardan razılıq ifadə edən fikirlər eşitmək xoş olur" cavabını verdi.

Bu gün "ASAN xidmət" mərkəzlərində əksər dövlət orqanları təmsil olunur. Ölkə Prezidentinin insanlara xidmətin asanlaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması üçün indi dünya tərəfindən təqdir olunan bu ideyası artıq Azərbaycan brendinə çevrilib. Belə nəcib işə könüllülərin qoşulması, gənclərin bu xidmət sahəsində özünü sınaması, ASAN iş prinsiplərinə yiyələnmələri, paytaxtda olduğu kimi, regionlarda da yeni iş yerlərinin açılmasına, eləcə də öz gücünə inamın artmasına şərait yaradır.

DİN-in ASAN-da xidmət edən əməkdaşları haqqında keçirdiyim sorğudan və özümün də xoş təəssüratından sonra elə o vaxtdan adını yadımda saxladığım, barəsində yazı yazmaq üçün xidmət etdiyi idarədən razılıq aldığım polis baş leytenantı Vüsalə Cəfərova ilə asudə vaxtında görüşdük.

Polis ailəsində doğulub. DİN-in Polis Akademiyasını bitirib. 2014-cü ildən DİO-da xidmət edir. İşində dəqiqliyi ailədən gəlir. Göz açandan polis səliqə-sahmanı və dəmir nizam-intizam görüb. Özünə qarşı tələbkardır. Məhz buna görə də çətin və məsuliyyətli bir görəvdə əhaliyə xidmət göstərməsinə rəhbərlik razılıq verib. Tabeçiliyindəki əməkdaşlara biliyi və bacarığı ilə əsl nümunədir **polis baş leytenantı Vüsalə Cəfərova**.

İdmanı da sevir, musiqini də. Muğamlardan "Bayatı Şirazı" çox bəyəndiyini deyir. İki övlad anasıdır. Qızı gözəl rəsmlər çəkir. Onlar bir çox sərgilərdə nümayiş etdirilib.

Həmkarımız 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında xidmətinin öhdəsindən layiqincə gəldiyinə görə DİN-in "Əla xidmətlərə görə" döş nişanı ilə təltif edilib.

Vətənə, dövlətə və xalqa layiqli xidmət insana başucalığı gətirir. Əldə olunan hər bir nailiyyətdə sənin də öz payın olur. Necə deyərlər, "Torpaqda izi olanın, süfrədə də üzü olar".

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# İKİ ÖMÜR, BİR TALE...

**Torpaq adlı əmanətə, bir ocaqlıq, bir adamlıq qəbir yerinə belə yiyə dura bilmədik. Şuşanın işğalından sonra on gün də yatdıq qəflət yuxusunda. Atılan top səsinə, "qrad"ların nəriltisinə gözlərimiz açılmadı. "Qarabağ əldən gedir" harayına səs vermədilər "bəylər", "bəyzadələr"…**

Laçınlılar da qan verdilər, can verdilər doğulduqları torpaq üçün. Babaların qaya vüqarı, nənələrin üzərlik nəfəsi belə kömək etmədi Laçını əldə saxlamağa. Dağların dodağı çatladı o gün. Qayalar əl-ələ verib tanklara, "BTR"lərə sinə gərmək istədilər...

Rayonun müdafiəsi zamanı 262 nəfər şəhid oldu, 67 nəfər itkin düşdü, 68 min laçınlı odsuz, ocaqsız qaldı. Laçın uğrunda gedən döyüşlərdə 43 polis əməkdaşı şəhid oldu. Onlardan 3 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü, 4 nəfər isə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olundu.







Bu gün hər laçınlının ürəyində Laçın boyda bir yara var və mən əlbəttə ki, "vətənsizlik, yurdsuzluq nədir?"- sualına cavab verə bilənlərin nə çəkdiklərini sözlə ifadə etmək gücündə deyiləm.

Ancaq ümid sonuncu ölür və bizə qələbə sevincini yaşadacaq, cərgəsində laçın kimi oğullar olan Azərbaycan Ordusu Ali Baş Komandanın "hücum" əmrini gözləyir. 8 may-18 may tariximizin qara dastanı yox, Qarabağın azadlıq marşı kimi dillərdə oxunmalıdır.

Yurd itirmişlərlə dərdləşmək üçün gərək iki ürəyin, dörd gözün ola. Onların yaşadıqlarını çəkməyə bir ürək tab eləməz, iki göz aciz qalar itirdiklərinə ağlamağa. Dağ adamlarının qubarı, nisgili də dağdan ağır olur. Elə Laçının dağ vüqarlı, sinəsi səngər polis övladlarının illərin o üzündə qalan xatirələrini dilə tutdum. Düzü, başlarına gələnləri, yaşadıqlarını dünən olmuş kimi danışdıqca onların ürəklərinin buna tab etməyəcəyindən qorxdum. Düşmən gülləsinin qorxduğu oğulları indi xatirələr…

Nə isə…

Azərbaycanın 58 rayonuna laçınlılar pələsəng olub, sonradan yuva qurublar. Yurd salmayıblar, çünki yurdu Laçında yenidən salacaqlarına inanırlar.

O da Ağcabədinin Taxtakörpü qəsəbəsində laçınlı xatirələrinə sığınıb dünyanın gərdişinə tamaşa edir. Gözü-könlü dolu adamdı polis polkovnik-leytenantı Şahvələd Nəsirov. Buna görə də söhbətimiz tutmuşdu.

Həmkarım 1964-cü ildə Güləbirddə doğulub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olunub. Tələbəlik illəri dünyanın çarxının tərsinə dönən vaxtına təsadüf edib. Könüllülərə qoşulub Vətəni müdafiə etmək üçün. Düşmənin topuna, silahına qarşı həm də laçınlıların nifrəti, qəzəbi, torpaq yanğısı döyüşüb. Ölümlərdən sıyrılan Ş.Nəsirov DİO-ya qəbul olunub, sahə müvəkkili olaraq Güləbirddə həm döyüşüb, həm də asayişi qoruyub. Horadizin və düşmən tapdağında olan daha 22 kəndin geri alınması uğrunda gedən döyüşlərdə də iştirak edib. "Atəşkəs" elan olunduqdan sonra Post-Partul Xidməti batalyonunun komandiri təyin olunub. DİN-in Polis Akademiyasını da bitirdi. Şəxsi heyətlə iş üzrə rəis köməkçisidir. Rəhbərlik tərəfindən dəfələrlə mükafatlandırılıb, DİN-in "Əla xidmətə görə" döş nişanı ilə təltif olunub. Gənclərə hər zaman diqqət və qayğı ilə yanaşır, onları təhsillərini davam etdirməyə sövq edir.

Ocağında böyüyən və bu gün hər biri ona başucalığı gətirən övladlarına qarşı da çox tələbkardır. Əgər belə olmasaydı "Mənə görə ən etibarlı biznes təhsilə qoyulan vəsaitdir. Ancaq ona qoyulan kapital müəyyən bir dövrdən sonra əlavə divident gətirir və bəhrəsini verir" fikrini çevrəsindəkilərə dönə-dönə xatırlatmazdı.

Gəlin, Azərbaycanımızı qardaş Türkiyədə layiqincə təmsil edən, tanıdan polis övladları ilə biz də yaxından tanış olaq.

Şəmsi Nəsirov Bakı Ali Neft Məktəbini əla qiymətlərlə bitirib. Harvardın və bitirdiyi ali məktəbin diplomunu əldə edib. Bir neçə dildə sərbəst danışır. Əldə etdiyi uğurlarına görə bir çox şirkətlər onu işə dəvət ediblər. İmtahan verərək Türkiyədəki "Star" zavodunda mühəndislik fəaliyyətinə başlayıb.

Elxan Nəsirov ailənin kiçik övladı olsa da ərköyün böyüməyib. O da qardaşı kimi orta məktəbi əla qiymətlərlə başa vuraraq Türkiyədə "Otelçilik və turizm" ixtisasına yiyələnib. Hazırda qardaş ölkədə turizm sektorunda çalışır.

Həmkarımızın ən böyük qazancı onun vətənpərvər və zəhmətkeş böyütdüyü övladlarıdır. Deyir ki, uşaqların təhsili, tərbiyəsi ilə evdə ixtisasca həkim olan anaları Sevil Nəsirova məşğul olub…

*Ardı 4-cü səhifədə*

# TƏLƏB AYDINDIR, VƏZİFƏ DƏ

**"Yaşadığım evin, eləcə də digər evimin həyətyanı sahəsini özəlləşdirmək məqsədilə məndən 15 min manat alan, lakin aradan müəyyən müddət keçməsinə baxmayaraq, nə vədlərinə əməl edən, nə də ki, aldıqları pulu geri qaytaran şəxslər barəsində Sabunçu Rayon Polis İdarəsinə etdiyim müraciət əsasında işə başlayan qanun keşikçiləri mənə dəymiş maddi ziyanın qısa zamanda ödənilməsinə kömək etdilər. Bir daha şahidi oldum ki, sabitliyin, əmin-amanlığın keşiyində ayıq-sayıq duran Azərbaycan Polisi haqlının yanında, haqsızın qarşısındadır."**

Bayram Ağayev adlı zərərçəkmiş şəxsin bu məktubu RPİ-nin İstintaq şöbəsinin rəisi, polis mayoru Hikmət Vəliyevlə söhbətimizə körpü oldu. Redaksiyamıza ünvanlanmış və razılıq hissi ilə yazılmış məktubları onun diqqətinə çatdırdıqdan sonra həmkarım vətəndaş məmnunluğuna səbəb olan görüləsi işlərin çox olduğunu, zərəri ödəniləcək şəxsləri sevindirmək üçün əllərindən gələni edəcəklərini dedi.



Vətəndaş polisin fəaliyyətindən razıdır, məmnundur. Polisin ünvanına hədyan danışanların, ona qarayaxanların sosial şəbəkələrdə, müxtəlif internet portallarında cavabını verənlər dövlətini, xalqını, polisini sevən insanlardır.

H.Vəliyev deyir ki, gün ərzində müxtəlif məzmunlu materiallara baxır, haqqında qərar qəbul edirlər. Söhbət əsnasında "Vətəndaşlarla işləmək çətin deyil ki" sualım da cavabsız qalmır: "Xidmət sahəmiz elədir ki, biz vətəndaşlarla mütəmadi ünsiyyətdə oluruq. Ümumiyyətlə, polis, xüsusən də müstəntiq həm də psixoloq olmalıdır. Zərərçəkmişi dinləmək onun probleminin yarısını həll etmək deməkdir. Bu müstəntiqdən səriştə tələb etmir. Gərək özünü bir anlıq da olsa həmin şəxsin yerində hiss etməyi bacarasan"…

Müvafiq dövr ərzində törədilmiş oğurluq, dələduzluq cinayətlərilə yanaşı, digər cinayətlərin açılma faizini də diqqətimizə çatdıran şöbə rəisi dedi ki, hesabat dövrü ərzində istintaq edilən cinayət işlərindən 235-nin istintaqı tamamlanmışdır. Onlardan 229 şəxs barəsində 211 cinayət işi ittiham aktı ilə məhkəmələrə göndərilmiş, bəziləri xitam olunmuşdur. 2019-cu ilin birinci yarısında Bakı şəhəri üzrə məhkəməyə göndərilən cinayət işlərinin sayına görə Sabunçu RPİ İstintaq şöbəsi 211 cinayət işi ilə ön sırada olmuşdur.

2019-cu ilin 6 ayı ərzində mülkiyyətlə əlaqədar istintaqı tamamlanmış cinayət işləri üzrə vətəndaşlara dəymiş maddi ziyan 850.353 manat olmuşdur ki, bunun da 803.018 manatı və yaxud 94,4 faizi ibtidai istintaq zamanı ödətdirilmişdir. 2018-ci ilin müvafiq dövründə isə vətəndaşlara dəymiş maddi ziyanın 607.893 manatdan 554.124 manatının, yəni 91,2 faizinin ibtidai istintaq zamanı ödənilməsi təmin olunmuşdur.

Vicdanlı və dürüst xidmət apararaq içdiyi anda sadiqliyini daim nümayiş etdirmək, hüququnu və haqqını qorumaqdan ötrü ondan kömək istəyən vətəndaşın güvənc yerinə çevrilməsi üçün layiqli xidmət aparmaq əksəriyyəti gənc olsa da RPİ-nin şəxsi heyətinin, xüsusən də İstintaq şöbəsi əməkdaşlarının qarşısına DİN rəhbərliyi tərəfindən qoyulan tək və yeganə tələbdir.

*Hafiz Təmirov,*
*polis mayoru*

# VETERANLARIN FƏALİYYƏTİ DAHA DA GÜCLƏNİB

**Polis veteranları yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə ərazi polis orqanlarının rəhbərliyi və aidiyyatı xidmətlərin əməkdaşları ilə birgə müxtəlif təhsil müəssisələrində, DİN-in Polis Akademiyasında, eləcə də vətəndaşlarla görüşlər keçirərək hüquqi mövzularda maarifləndirmə işləri aparırlar. Onların təcrübəsi və peşəkarlığı cinayətlərin açılmasında mühüm rol oynayır.**

İlin 6 ayı ərzində veteranların köməyi ilə respublika üzrə 2564 cinayətin açılması təmin edilib.

Ötən müddət ərzində polis veteranları şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasına, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasına, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasına yönəlmiş tədbirlərdə də fəal iştirak ediblər. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi də daim diqqətdə saxlanılıb. Göstərilən dövr ərzində veteranlar 2772 dəfə respublikanın müxtəlif təhsil müəssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxış edib, tövsiyələrini veriblər.

Səmərəli fəaliyyətlərinə görə veteranlardan bir neçəsi DİN rəhbərliyi tərəfindən mükafatlandırılıb.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# İKİ ÖMÜR, BİR TALE...

*Əvvəli 3-cü səhifədə*



“Daxili işlər orqanlarında çalışdığım illərdə qazandığım təcrübə, vərdişlər sonralar xidmətimi davam etdirdiyim Fövqəladə Hallar Nazirliyi sistemində də çox karıma gəldi. İnanın, səmimi sözümdür, həmişə özümü DİN-in əməkdaşı kimi hiss etmişəm. Bu hiss məni indi də, yaşımın bu çağında da tərk etmir...”

Mingəçevirdə yaşayır. Boş vaxtlarında arxivində dolaşır, keçdiyi döyüş və xidmət yolunu, laçınlı günlərini üzüntü ilə xatırlayır Əjdər Hüseynov...

1960-cı ildə Laçının Ələkçi kəndində dünyaya göz açıb. Barəsində Xocalıdan olan müəllimin redaksiyamıza ünvanladığı məktubun sonunda yazılan “Vurulan düşmən təyyarəsi və nuru çəkilən gözlər” fikrindən sonra kiçik bir araşdırma apardım və telefonda danışsam da onu görməyim bu yaxınlara təsadüf etdi.

Məni çoxdan tanıyırmış kimi bağrına basdı. Üz-gözündən “dərd adamı belə olar” ifadəsini oxumaq elə də çətin deyildi. “Başımda gəzdirdiyim düşmən mərmisinin qəlpəsi gözlərimin nurunu aparıb” deyəndə tutuldum, məktubu xatırladım. Vətənin ağır günlərində polisin sıralarına qatılıb o da...

-Könüllülərə müdafiə olunmağı, hücuma getməyi, ən əsası, silahdan istifadə qaydalarını öyrədən polisin üzərinə çox böyük və məsuliyyətli iş düşmüşdü,- deyir. Bütün bunlarla yanaşı, sabitliyi bərpa etmək, cinayətkarlıqla mübarizə aparmaq da lazım idi. Məni Şəmkənd sovetliyinə sahə müvəkkili təyin etdilər. Laçında vəziyyət çox gərgin idi və mən xidmətimi mərkəzdə davam etdirəsi oldum. Sonra RPŞ-nin növbətçisi təyin etdilər. Burda da özümü doğrultdum. Ən qaynar nöqtələrdə döyüşdüm. Heç yadımdan çıxmaz, mayın 17-də növbədə idim. Bir də gördüm ki, Laçın top və müxtəlif silahlardan mərmi atəşinə tutuldu... Laçınım son saatlarını yaşayırdı...

“Bəs o təyyarə məsələsi nə idi?”, deyəndə hiss etdim ki, danışmaqda çətinlik çəkir. Bəlkə heç danışa bilməyəcəkdi. Qucağında can verən, ömrü yarım qalmış oğulları xatırlayırdı bəlkə də...

Bir romanın mövzusudur onun yaşadıqları. Yazmağa və ya onu dinləməyə həvəsiniz olsa görüşüb, dərdləşin. Sizin kimi, mənim kimi onun da bir arzusu var: Torpaqlarımızı azad edək, Laçına qayıdaq...

# ANDA SADİQLİK, İNSANLIQ NÜMUNƏSİ

“İnsan elə bir yaradılmışdır ki, ona nəyisə zorla etdirmək olmaz. Çünki şüuru var və nə vaxtsa öz bildiyi, gördüyü həqiqətin arxasınca canı bahasına olsa belə gedəcək.”

Bu fikirləri redaksiyamıza gələn məktublardan birindən oxumuşdum. Məktubun sonunda isə müəllif bunları yazmışdı. “Mən bir həqiqəti gördüm və onu ömür boyu unutmayacağam. Övladlarıma o həqiqəti danışmışam, ömür vəfa etsə, nəvələrimə də danışacağam. Nədir o həqiqət? Hərbiçiyəm. Hazırda tərxis olunmuşam. Amma yadıma gəlir ki, müstəqilliyimizi itirmək təhlükəsi ilə üzbəüz qaldığımız dönəmdə ilk nizami qüvvə, silah tuta bilməyən gənclərə silahı tutmağı, onun sirlərini öyrədən, elə sıralarından onlarla itki verən də Azərbaycan Polisi idi”.

Bu mövzuda çoxlu məktub gəlir Daxili İşlər Nazirliyinə. Hər biri də minnətdarlıq hissi ilə yazılıb. “Zorla”, “sən ölümə”, “mən ölümə” yazılmayıb. Təmənnasız yaxşılığı, ürəkdən gələn minnətdarlığı yazıya almaq isə bizim borcumuzdur.



Məmməd Araz gözəl deyib:

***Yaxşılıq neçə min ilməli xana,***
***Nəsildən-nəsilə qalan varımız...***

Məhərrəm Həsənov DİN-ə ünvanladığı məktubunda yazır: “Biz məlum hadisələrdən sonra öz dədə-baba torpaqlarımızdan-Göyçə mahalından deportasiya olunduq. Çox ağır günlərə sinə gərdik və illər keçəndən sonra gördük ki, ən böyük ağrı elə vətənsizlikdir. Topraqlarımıza hücum başlayanda bir hərbçi kimi bu mənim taleyim, əqidəm və ömür yolumdur, deyib əlimə silah aldım, döyüşlərə atıldım. İtirdiklərimiz də oldu, qazandıqlarımız da...

Ordumuzun yenicə formalaşdığı dönəmlərdə Azərbaycan Polisinin böyük fədakarlıqlarının şahidi oldum. Mənim qardaşım da polisdir. Səbail Rayon Mühafizə İdarəsinin əməkdaşıdır. Bu günlərdə qardaşım Vaqif infarkt keçirdi. Onu yenidən həyata qaytardılar. Bu gün onun sağlamlığına qovuşmasında çalışdığı idarənin böyük rolu oldu. Qardaşımın xəstəxanaya vaxtında çatdırılmasında, əməliyyata alınmasında gördüyümüz qayğıkeşlik bizi kövrəltdi. Qardaşım əməliyyatdan gözlərini açanda başının üstündə bir mən idim, bir də rəisi, polis polkovniki Habil Əsədov”.

Şəhid anası, Ağcabədi rayon Kəhrizli kənd sakini Elyana Əliyevanın məktubu da illərin və nəsillərin sınağından çıxan Azərbaycan Polisinin dünən olduğu kimi, bu gün də xilaskarlıq missiyasına sadiqliyinin bariz nümunəsidir. O, Boyat kəndi ərazisindəki yanacaqdoldurma məntəqəsinin işçisi olan nəvəsi Əmrahı ölümdən xilas edən polisimizə minnətdarlığını ifadə edir. Yazır ki, Ağcabədi-Ağdam yolunun 24-cü kilometrliyində partul xidməti aparan polis baş serjantı Elman Təhməzov öz həyatını təhlükəyə ataraq benzin çəninə düşüb və orda halsız vəziyyətdə qalan nəvəsinin və Faiq Cəfərovun həyatını xilas edib.




Torpaqlarımız uğrunda döyüşlərdə oğul itirmiş anaya bu məktubu kimsə xahişlə, göstərişlə yazdıra, diqtə edə bilməz...

***Hafiz Təmirov, polis mayoru***

# “XƏZRİ” sizi gözləyir!




**Daxili İşlər Nazirliyinin “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

# RESPUBLİKA BAŞ PROKURORLUĞU VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

İyulun 12-də gecə saat 23:00 radələrində Goranboy rayonunun Goran qəsəbəsi ərazisində xidmət aparan Rayon Polis Şöbəsinin əməliyyat müvəkkili Vüsal Kərimov avtomobilin yolun kənarındakı maneəyə çırpılması ilə əlaqədar bir qrup şəxsin yol kənarında toplaşdıqlarını görüb səbəbini müəyyənləşdirmək məqsədi ilə onlara yaxınlaşmışdır. Bu zaman həmin şəxslərlə polis əməkdaşı arasında mübahisə yaranmış və onlardan biri - Qarapirimli kənd sakini Lətif Əmrahov polis əməkdaşına qəfil zərbə endirərək onu yerə yıxmışdır. Asayiş keşikçisi üzərində olan xidməti silahdan havaya xəbərdarlıq atəşi açarkən güllə L.Əmrahovun əmisi oğlu Təbriz Əmrahova dəymişdir. Bundan sonra Təbrizin qardaşı Pərviz Əmrahov silahı polis əməkdaşının əlindən alaraq küpü ilə onun baş nahiyəsindən çoxsaylı zərbələr endirərək ağır xəsarət yetirmişdir.

Xəsarət almış polis əməkdaşı və vətəndaş T.Əmrahov Gəncə şəhər Mərkəzi Xəstəxanasına yerləşdirilmişlər.

Faktla bağlı Cinayət Məcəlləsinin 126.1 (qəsdən sağlamlığa ağır zərər vurma), 309.2 (vəzifə səlahiyyətlərini aşma) və 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə cinayət işi başlanmış, polis və prokurorluq əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmışdır.

İş üzrə zəruri ekspertizalar təyin edilmiş, hadisə yerinə baxış keçirilərək maddi sübutlar götürülmüş və digər zəruri istintaq hərəkətləri həyata keçirilmişdir.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun məsul əməkdaşları Goranboy rayonuna ezam olunmuşlar.

Cinayət işi üzrə istintaqın davam etdirilməsi Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılmış və hazırda təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək istintaqa cəlb edilməsi, eləcə də iş üzrə əhəmiyyət kəsb edən sübutların əldə edilməsi istiqamətində zəruri və təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***13 iyul 2019-cu il.***

# MARAQ DÜNYASI

◆Ağlamağın bir çox səbəbi var – bu fiziki ağrıdan, nifrətdən, qorxudan, ümidsizlikdən, sevincdən ola bilər.

◆İnsan dünyaya gələndə əvvəlcə ağlayır, sonra isə gülməyi öyrənir.

◆Göz yaşının tərkibində olan lizosim maddəsi təbii antibiotikdir. Bu maddə gözləri infeksiyalardan qoruyur. Göz yaşlarının kimyəvi tərkibi dəyişilir. İnsan kədərdən ağlayanda göz yaşları daha duzlu, hətta acı olur, sevincdən ağlayanda isə əksinə.

◆Elmi araşdırmalara görə, ağlamaq həqiqətən stressi azaldır. Müşahidələr göstərir ki, ağladıqdan sonra insanlar özünü pis hiss edir. Lakin yarım saat keçdikdən sonra insan yüngüllük hiss etməyə başlayır.

◆Ağlayarkən göz yaşları ilə birlikdə stress hormonları ifraz olunur.

◆Göz yaşının 98 faizi sudur, qalanı isə duz, zülal, hormonlar və bəzi digər maddələrdir.

◆Göz yaşının tərkibinə görə insanın göz xəstəliklərini və göz travmalarını aşkar etmək mümkündür.

◆ABŞ alimləri aşkar ediblər ki, çox ağlayan insanlar kreativ və yaradıcı olur.

◆Eksperimentlər göstərib ki, ağlamaq həm fiziki, həm də emosional ağrıları azaldır.

◆Niyə qadınlar daha çox ağlayır? Məsələ burasındadır ki, kişi hormonu olan testesteron göz yaşlarının ifrazını azaldır, qadın hormonu oksitosin isə əksinə artırır. Yaşlaşdıqca kişi orqanizmində testesteronun ifrazı azalır və bu səbəbdən yaşlı kişilər «kövrək» olur.

◆Heç vaxt qəmdən, kədərdən ağlamayaq, gözlərimizdən gülüş əskik olmasın.

***Ruhiyyə Əliyeva***

# İyul ayının 10-dan 17-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 143 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 44 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 95, o cümlədən mülki hüquqi öhdə liklərin icrasından yayındığına görə 15, borclu şəxs qismində axtarışda olan 22 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 18 nəfər ölmüş, 14 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 88 fakt müəyyən edilmişdir.

# İSTİFADƏYƏ YARARSIZ MƏHSUL AŞKAR EDİLİB

Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, insan sağlamlığına ciddi zərər vuran, istifadəyə yararsız yeyinti məhsullarının satışının qarşısının alınması istiqamətində polis orqanlarının aidiyyatı qurumlarla birgə tədbirləri davam etdirilir.

Növbəti belə tədbirlər iyulun 10-da Daxili İşlər Nazirliyi əməkdaşlarının və Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələrinin iştirakı ilə Ağdam və Ağdaş rayonları ərazilərində keçirilib.

Ağdam rayonu ərazisində Ağcabədi rayon sakini A.Nəsibovun idarə etdiyi “VAZ-21074” markalı avtomobilə baxış zamanı natəmiz vəziyyətdə və qida üçün yararsız olan 175 kiloqram, Ağdaş rayonu ərazisində isə Mingəçevir şəhər sakini M.Mehdiyevin idarə etdiyi “QAZ-3110” markalı avtomobilə baxış zamanı mənşəyi məlum olmayan 200 kiloqram ət məhsulu aşkar edilərək götürülmüşdür.

Ətlərdən götürülmüş nümunələr müvafiq ekspertizanın keçirilməsi üçün Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyasına təhvil verilib.

***Natiq Cavadov***

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.372
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00